# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ MƏRKƏZİ ELMİ KİTABXANASINDA MÜASİR STANDARTLAR ƏSASINDA E-KATALOQLAŞDIRMANIN YARADILMASI

***Ayşən Taleh qızı Bağırzadə***

*AMEA Mərkəzi Elmi Kitabxana*
*Bakı Dövlət Universiteti,*
*magistrant*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*aysnbagirzad@gmail.com*

***Açar sözlər:*** *elektron kataloq, avtomatlaşdırma, kitabxana, məlumat bazası, elektron kitabxana, onlayn kataloq*

***Ключевые слова:*** *электронный каталог, автоматизация, библиотека, база данных, электронная библиотека, онлайн-каталог*

***Keywords:*** *electronic catalog, automation, library, database, electronic library, online catalog*

**Xülasə:** Məqalədə AMEA MEK-də elektron kataloqun yaradılmasının tarixinə ekskurs olunmuş, avtomatlaşmanın kitabxanada tətbiqi məsələlərinə toxunulmuşdur.

**Резюме:** В статье затрагиваются вопросы создания электронного каталога в ЦНБ НАНА и применения автоматизации в библиотеке. В статье рассматривается история создания электронного каталога в ЦНБ НАНА, а также затрагиваются вопросы применения автоматизации в библиотеке.

**Summary:** The article explores the history of the creation of an electronic catalog at the Central Scientific Library of the Azerbaijan National Academy of Sciences and touches on the issues of applying automation in the library.

Cəmiyyət sivilizasiyasının sürətlə inkişaf etdiyi bir dövrdə informasiya texnologiyalarının tətbiqi geniş vüsət almışdır. Məlumdur ki, ənənəvi kitabxanalardan müasir kitabxanalara inteqrasiya prosesində cəmiyyətin inkişaf tələbləri də texnikanın inkişafından asılıdır. Yeni texnologiyaların inkişafı kitabxanaların dəyişikliyinin müasir standartlara uyğun inkişaf etməsinə səbəb olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası respublikada milli və dünya əhəmiyyətli nəşrlərlə zəngin fondlara malik olan ən iri, universal təmayüllü aparıcı elmi kitabxanadır. Dünya standartlarına və kitabxananın nizamnaməsinə uyğun olaraq kitabxana proseslərinin avtomatlaşdırılması istiqamətində mühüm addımlar atılmaqdadır.

Kitabxana texnologiyalarından istifadə oxuculara operativ şəkildə xidmət etmək işini asanlaşdırır və bütövlükdə kitabxana işinin təkmilləşdirilməsində xüsusi rol oynayır.

MEK oxuculara operativ xidmətin keyfiyyətini yüksək səviyyəyə çatdırmaq üçün bütün texniki imkanlardan istifadə edərək avtomatlaşdırma sahəsində yüksək irəliləyiş sərgiləyir. Kitabxana 2000-ci ildən müxtəlif layihələr vasitəsilə, eləcə də İnformasiya Texnologiyaları İnstitutu və Fransanın ölkəmizdəki səfirliyi tərəfindən ayrılan kompüter dəstləri sayəsində kitabxana-informasiya proseslərinin avtomatlaşdırılmasına başlamışdır [2].

Elmi-texniki tərəqqinin müasir mərhələsində MEK də öz qarşısında konkret vəzifələr müəyyənləşdirmişdir. Azərbaycanın zəngin elminin təbliğinin elektron daşıyıcılarla, informasiya-kommunikasiya texnologiyalarının köməyi ilə oxucu kütləsinə çatdırılması kitabxana işi sahəsində dövrün aktual məsələlərindən biridir. Mərkəzi Elmi Kitabxana cəmiyyətdə müasir standartların və tələblərin yaratdığı dəyişikliklərə biganə qalmır, bu proseslərdə öz aktiv mövqeyini göstərərək nailiyyətlər əldə

edir. Cəmiyyətdə informasiya proseslərinin avtomatlaşdırılması informasiya axtarışı və istifadəçilərə xidmətin müasir standartara uyğunlaşmasına şərait yaradır.

İnformasiyanın toplanılması, saxlanılması, işlənməsi və ən əsası axtarışı üçün avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin tətbiqi ən vacib məsələlərdən hesab olunur.

Kitabxana proseslərinin avtomatlaşdırılması kitabxanalarda ilk növbədə e-kataloqun yaradılması işi ilə başlanır.

1997-1998-ci illərdən başlayaraq MEK kitabxana-informasiya proseslərinin avtomatlaşdırılması məsələləri ilə bağlı konfrans, müşavirə, seminar və kurslarda iştirak etmişdir [3].

2003-cü ildə MEK-də "Kitabxana proseslərinin avtomatlaşdırılması" şöbəsi fəaliyyətə başlamışdır. Şöbə 2000-ci ildən fəaliyyət göstərən 6 komputerlə təmin edilmiş "İnternet zalı"nın bazasında təsis edilmişdir [3].

«Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən 2007-ci il aprel ayının 20-də imzalanmış sərəncama əsasən, Mərkəzi Elmi Kitabxana da öz qarşısında konkret məqsədlər və vəzifələr müəyyənləşdirmişdir. [1]

Hazırda kitabxanada tətbiq edilən Rusiya istehsalı olan Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi İRBİS 64+ vasitəsilə e-kataloq lokal və onlayn olaraq oxucuların istifadəsinə verilmişdir. 7/24 fəaliyyət göstərən e-kataloqdan bütün növ oxucular istifadə etmək imkanına malikdir.

İstifadəçilərə xidmət sferasının genişləndirilməsi məqsədilə MEK-in elektron saytında kitab, jurnal, avtoreferat və digər resurslar elektron kataloq istifadəçi interfeysində onlayn olaraq yayımlanır.

2024-cü il sentyabrın 25-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) "AMEA-da elektron kitabxana yeni mərhələdə" adlı tədbir keçirilib. Tədbirdə MEK-in elektron kitabxanasının və yeni veb saytının açılışı olub. Veb sayt vasitəsilə təqdim olunan istifadəçi interfeysində elektron kitabxananın resurslarından yararlanmaq mümkündür. [4]

**Ədəbiyyat**

1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Azərbaycan" qəzeti. – 2007. - 21 aprel.

2. *Əliyeva-Kəngərli, A*. Ənənəvi kitabxanadan avtomatlaşdırılmış informasiya mərkəzinə doğru// Kitabxanaşünaslıq və ədəbiyyatşünaslıq .- 2003 .- №4 .- S.18.

3. *Hüseynova, F.* Komputer texnologiyalarının tətbiqi məsələləsində AMEA Mərkəzi Elmi Kitabxanasında biblioqrafik-informasiya xidmətinin təşkili:ənənə və perspektivlər// Kitabxanaşünaslıq və ədəbiyyatşünaslıq .- 2003 .- №4 .- S.27-29

4. www.mek.az